*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 79-86* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.79*

# Yazıçı tənqidinin tarixi inkişafı

**Nurlanə Məmmədova**
Filologiya elmləri üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: memmedovanurlane89@gmail.com
ORCID iD: https://orcid.org/0000-0002-1734-8949

***Xülasə.*** Azərbaycan ədəbi prosesində müxtəlif tendensiyalar özünü göstərir. Belə ki, tənqidçilər əsərlərin və şəxsiyyətlərin tədqiqatı ilə yanaşı sahənin nəzəri prinsiplərini müəyyənləşdirmək istiqamətində araşdırmalar aparır. Bu araşdırmalar içərisində tənqidin və tənqidçinin hansı tipologiyaya aid olması məsələsi diqqət mərkəzindədir. Araşdırmamız XIV əsrdən XXI əsrə qədərki dövrü əhatə edir. Məqsəd tarixi təsnifat yaratmaq deyildir, yazıçıların ədəbi-estetik mülahizələrinin mərhələli inkişafına nəzəri aspektdən yanaşmaqdır. Yazıçı tənqidinin başlanğıcını Nizami Gəncəvi dövründən götürməyi məqsədəuyğun hesab edirik. Təbiidir ki, folklor materiallarında tənqidi mühakimə vardır. Bizi maraqlandıran cəhət yazılı ədəbiyyat olduğu üçün yaranan əsərin müəllifinin kimliyi üzərindən tədqiqatımızı aparmağı labüd bilmişik. Həm tənqidi məqalələr, həm də bədii əsərlər yazan yaradıcı insanların fəaliyyətini nəzərə almaq və sistemləşdirmə aparmaq müasir dövrdə aktuallığını gözləyən məsələdir. Bu da bizim araşdırmamızın elmi yeniliyini şərtləndirir. Çünki qarışıq fikirlərin hökm sürməsi elmi fəaliyyət üçün məqbul amil deyildir. Bu cəhətdən məqalədə Arif Ərdəbilinin Nizami Gəncəvi, Səməd Vurğunun Hüseyn Cavid yaradıcılığına yönəlmiş fikirləri üzərində yazıçı tənqidinin əsas xüsusiyyətləri baxımından tədqiqat aparmışıq. Bu nəticəyə gəlirik ki, Arif Ərdəbilini, Səməd Vurğunu peşəkar tənqidçi kimi qiymətləndirə bilmərik. Çünki onların fikirlərində təəssürat xarakterli motivlər vardır, subyektiv mahiyyət bədii əsərdən şəxsiyyətə yönəlmişdir. Mirzə Fətəli Axundzadə və Elçinin ədəbi prosesdə tənqidçi kimliyi və üslubu ətrafında olan mübahisəli məsələlərə aydınlıq gətirmək məqalədə əsas məqsəd seçilmişdir. Ədəbi-tənqidi fikri elmi-nəzəri səviyyədən öyrənmək və öyrətmək baxımından ədəbi prosesdə fəal mövqeyi və mənafeyi ilə seçilən tənqidçilərin və ədəbi simaların yaradıcılıq keyfiyyətlərini üzə çıxarmaq aktuallıq kəsb edir. Buna görə də ədəbi tənqidin başlanğıcını qoyan Mirzə Fətəli Axundzadənin, çağdaş tənqidi fikri metodoloji istiqamətdən inkişaf etdirən Elçinin ədəbi prosesdə mövqeyinə və yaradıcılıq keyfiyyətlərinə nəzər yetirməklə yazıçı tənqidi ilə professional tənqid arasındakı fərqlər üzə çıxarılmışdır.
***Açar sözlər:*** *Yazıçı tənqidi, klassik dövr, nəzəri yanaşma, subyektiv baxış*

**Məqalə tarixçəsi:** göndərilib – 22.04.2026; qəbul edilib – 21.05.2026

# The historical development of writerly criticism

**Nurlana Mammadova**

***Abstract.*** Various tendencies manifest themselves within the Azerbaijani literary process. In this regard, critics, alongside investigating literary works and individual authors, also conduct research aimed at identifying the theoretical principles of the field. Among these studies, particular attention is devoted to the question of which typology criticism and the critic belong to. Our research encompasses the period from the fourteenth to the twenty-first century. The aim is not to establish a historical classification, but rather to approach the gradual development of writerly criticism from a theoretical perspective. We consider it appropriate to trace the origins of writerly criticism back to the era of Nizami Ganjavi. It is, of course, natural that elements of critical judgment are present in folklore materials. However, since our primary interest lies in written literature, we have deemed it necessary to conduct our investigation through the authorship of the produced works. Taking into account the activities of creative individuals who produce both critical essays and literary works, and undertaking their systematic classification, remains an issue of pressing relevance in the contem-

porary period. This, in turn, determines the scientific novelty of our study, as the prevalence of ambiguous and unsystematized views is not conducive to rigorous scholarly inquiry. From this perspective, the article examines the views of Arif Ardabili on Nizami Ganjavi and of Samad Vurgun on Huseyn Javid, analyzing them in terms of the principal characteristics of writerly criticism. We arrive at the conclusion that Arif Ardabili and Samad Vurgun cannot be regarded as professional critics. This is due to the presence of impressionistic elements in their assessments, as well as the predominance of subjectivity, which shifts the focus from the literary work itself to the personality of the author. The principal aim of the article is to clarify the controversial issues surrounding the identity and stylistic approach of Mirza Fatali Akhundov and Elchin as critics within the literary process. From the standpoint of studying and teaching literary-critical thought at a scientific-theoretical level, it is of particular relevance to reveal the creative qualities of critics and literary figures distinguished by their active positions and intellectual engagement in the literary sphere. For this reason, by examining the position and creative attributes of Mirza Fatali Akhundov - who laid the foundations of literary criticism - and Elchin - who has advanced contemporary critical thought in a methodological direction-we have identified the differences between writerly criticism and professional criticism within the literary process.

***Keywords:*** *Writerly criticism, classical period, theoretical approach, subjective view*

**Article history:** received – 22.04.2026; accepted − 21.05.2026

## Giriş / *Introduction*

Sovet dövrü tənqidi-nəzəri fikir tarixindən çağdaş dövrümüzə qədər olan elmi mənzərə göstərir ki, klassik irsdən başlayaraq müasir dövr yazıçıların ədəbiyyat və sənət haqqında görüşləri ədəbi-tənqidi düşüncə qismində təhlil edilmişdir. Kamal Talıbzadə ədəbi-tənqidi fikrimizin qaynaqlarını ətraflı şəkildə tədqiqata cəlb edərkən "*bu mərhələdə yaranan əsərin ilk tənqidçisi də müəllifin özüdür*" [Talıbzadə: II, 1994, s.5] mülahizəsini irəli sürmüşdür. Estetik təsəvvürün formalaşmasının klassik ənənədən götürülməsi məsələsi müasir dövrdə də davam etdirilir. Nizami Gəncəvi, Arif Ərdəbili, Marağalı Əhvədi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Saib Təbrizi, Qövsi Təbrizi kimi klassik və orta əsrlər Azərbaycan ədəbiyyatının nümayəndələrinin bədii yaradıcılığında tənqidi-estetik düşüncənin mövcud olması fikri birtərəfli səslənir. Onların sözün dəyəri, sənətin gözəlliyi, mətndə sözün yerli-yerində işlədilməsi, sənətin həqiqətlə uyğunluğu, fikrin yeniliyi və aydınlığı haqqında olan fikirləri estetik düşüncənin bədiiliklə qarşılıqlı əlaqəsini göstərir. Bu fikirləri professional tənqidin deyil, yazıçı tənqidinin ilkin başlanğıcı hesab edə bilərik. Folklordan başlayan bu inkişaf XII əsrdə Nizami Gəncəvi yaradıcılığı ilə yeni bir istiqamət formalaşdırır. "*Yazıçı tənqidinin başlanğıcı məhz bu dövrə aiddir. Bu dövrün əsas xüsusiyyəti ondan ibarətdir ki, tənqidi mülahizələr bədii əsərlərin tərkibində ifadə olunmuşdur*" [Dadaşova: 2003, s.41].

## Əsas hissə / *Main part*

Bədii əsərlərdən ortaya çıxan bu fikirlərdə ədəbi-estetik yanaşma və fəlsəfi ümumiləşdirmə mövcuddur. Bu zaman yazıçı tənqidi anlayışı bu şairlərə şamil edilir. Çünki elmi-nəzəri tənqidi fikir bu mülahizələrdə yoxdur. Estetik fikirlə tənqidi-estetik fikrin arasında incə bir fərq vardır. Belə ki, dərk edilərək qiymətləndirilən problemin əsasında tənqidi refleksiya dayanır. Tənqidi refleksiya bədii əsərin dəyərləndirilməsi zamanı şüurda yaranan inikas formasıdır. "*Estetik mülahizələr müxtəlif dövrlərin bədii təcrübəsinin ətraflı təhlili, mədəni və kütləvi bədii zövqlərin təkamülünün istiqaməti və səbəblərinin dərk edilməsi, incəsənət ustadlarının öz yaradıcı proseslərinin müşahidəsi əsasında doğruluq qazanır*" [Кривцун: 2014, s.18].

Belinskinin "*tənqid hərəkətdə olan estetikadır*" [Белинского: 1981, s.67] ifadəsi belə nəticəyə gəlməyə əsas verir ki, klassiklərin fi-

kirlərini peşəkar tənqiddən uzaqlaşdıran amil də onun fəaliyyətdə olması, Borevin sözləri ilə desək *"gerçəkliklə sənətkar arasında qarşılıqlı əlaqəyə təsir göstərməsi"* [Borev: 2010, s.230] ilə bağlıdır. "*Gerçəklik – sənətkar – bədii əsər – oxucu – gerçəklik*" [Borev: 2010, s.233] zəncirində klassiklərin söz və sənət haqqında fikirlərində "gerçəklik – sənətkar – bədii əsər – oxucu" halqası qurulur. Ədəbi tənqid isə *"bu prosesin bütün halqalarına və halqalar arasında qarşılıqlı əlaqənin xarakterinə təsir göstərir"* [Borev: 2010, s.230]. Düzdür, estetika tənqidin nəzəriyyəsidir. Lakin klassik irsin estetik fikirləri ədəbi tənqid prizmasından təhlil edilməməlidir. Çünki bu əsərlərdə müəllif düşüncəsinə kənardan yanaşma mövcud deyildir. Eyni zamanda tənqidi mühakimə klassiklərin düşüncələrində yer almamaqdadır. Bu dövrdə estetik mülahizələr bədii əsərin tərkibində subyektiv bədii təfəkkürdən gəlir və obrazlılıq, emossionallıq aparıcı mövqeyini qoruyur. "Düşünən" və "Düşündürən" şairin yaradıcılığının potensial imkanları ədəbiyyatşünaslıq elminin nəzəri-estetik baxışında təkamül rolunu oynayır. Burada professional tənqid özünü göstərmir, konseptuallıq və ümumiləşdirmək qabiliyyəti aşkar edilmir. Klassiklərin yaradıcılığında olan fəlsəfi fikirləri XX əsrdə formalaşan yazıçı tənqidini istiqamətləndirən mənbə kimi dəyərləndirə bilərik.

Xətib Təbrizinin fəaliyyəti ilə öz bünövrəsini götürən ədəbi tənqid tarixi professional reallığını Mirzə Fətəli Axundzadənin yaradıcılığında tapmışdır. XI əsrdən XIX əsrə qədər olan tarixi dövrü birbaşa tənqid tarixi ilə bağlamaq müəyyən qədər doğru nəticə hasil etmir. Yəni, Azərbaycanda peşəkar tənqid Xətib Təbrizidən başlamış və Mirzə Fətəli Axundzadənin fəaliyyətinə qədər durğunluq dövrü yaşamışdır. Buna görə də XII əsrdən XIX əsrdə qədərki dövrü yazıçı tənqidinin ilk dövrləri kimi qeyd edə bilərik. Yazıçı tənqidi başlanğıcını klassiklərin ədəbi irsindən götürmüşdür. Bununla belə, yazıçı tənqidinin inkişaf mərhələsi XX əsrdir. Yazıçı tənqidi anlayışının düzgün dərk edilməsi müasir yazıçılarla klassik irsdə təsadüf edilən fikirlər arasındakı fərqi müəyyənləşdirməyə kömək edir.

Arif Ərdəbilinin "Fərhadnamə" əsərində polemika yaratmaq qabiliyyəti diqqəti cəlb edir. Arif Ərdəbili Nizami Gəncəvini hədəfləyən misralarında sözünə, qələminin gücünə inamını poemanın daxilində belə ifadə etmişdir:

*Gəncə möbidilə demə qurtardı,*
*Söz şahı, Gəncəyə xəzinadardı.*
*Nizami, söz deyən müdrik sənətkar,*
*Söz vaxtı göstərib daim ecazlar*
[Ərdəbili: 2007, s.190-191].

Bu misralarda şeirin binasını qoyan şairin yaradıcılığına ehtiram hiss olunsa da, Arif Ərdəbilinin əsərinə Nizami ilə bağlı hissələr salmasında başqa məqsəd güdülmüşdür. İlk öncə qeyd edək ki, yuxarıdakı misralar məqsədli şəkildə əsərdə yer almışdır. Belə ki, "Xosrov və Şirin" poemasının "Nəsihət və son söz" hissəsində, "Leyli və Məcnun" əsərində Nizaminin oğlu Məhəmmədə ünvanlanan nəsihətlərində söz meydanında artıq onu əvəz edə biləcək şairlərin olmadığına işarələr vardır.

"Xosrov və Şirin" əsərində:

*Dedim: "Məni görmək istəsə hər kim,*
*Beytimdə görünər ona surətim.*
*Yüz il sonra sorsan bəs o hardadır?*
*Hər beyti səslənər: "Burda, burdadır!"*
[Gəncəvi: 2004, s.473].

"Leyli və Məcnun" əsərində:

*Şeirdən ucalıq umma dünyada,*
*Çünki Nizamiylə qurtardı o da*
[Gəncəvi: 2004, s.51].

Zamanın sınağından qalib çıxa biləcək şeirlər yaratması ilə fəxr edən Nizaminin bu misralarına qarşılıq olaraq, Arif Ərdəbili öz sənətkarlığını qabartmaq üçün həmin misraları işlədir. Xəlil Yusifli belə nəticəyə gəlmişdir ki, o, *"Nizamini Yaxın və Orta Şərqin ən böyük şairi kimi həzm edə bilməmişdir"* [Ərdəbili: 2007, s.23]. Bizim fikrimizcə, Arif Ərədəbilinin bu şəkildə yanaşması Nizaminin təsiri altında olmadığını sübut etməyə çalışması ilə bağlıdır. Şair "Xosrov və Şirin" poemasından əsərə daxil etdiyi və həmin fikirlərə əks mövqe nümayiş etdirdiyi beytlərdə də Nizami ənənələrinin davamçısı kimi diqqəti cəlb edir.

Arif Ərdəbili "Xosrov və Şirin" poemasından sonra orijinal əsər yaratmaq istədiyini diqqətə çatdırmaq üçün əsərində müqayisəli tərən-

nümü əsas seçmişdir. Özündən əvvəl Xosrovun baş qəhrəman kimi obrazını yaradan Nizamidən fərqli bir əsər yazdığını bu fikirlərlə isbat etməyə çalışmışdır:

*O dəm ki, Xosrovu yadına saldı,*
*Zəruri bir işin qeydinə qaldı.*
*Xosrovdan ən yaxşı işləri seçdi,*
*Şirindən bakirə dürrlər deşdi.*
*Iltifat etmədi əsla Fərhada,*
*Qoymadı Şirindən yetə murada.*
*Xosrovun bəxtinə özü qıymadı,*
*O qərib Fərhada məhəl qoymadı*
[Ərdəbili: 2007, s.198].

*Fərhad qissəsinə Arif göz açdı,*
*Nəzm ilə üstünə gövhərlər saçdı*
[Ərdəbili: 2007, s.210].

Arif Ərdəbili diqqətdən kənar qalan Fərhada üstünlük verməsi ilə bir sənətkar kimi şairlik məharətini göstərməyi əsərinin əsas amalı hesab etmişdir. Eyni mövzuya müraciət edən iki şairi bir-birindən ayıran cəhətlər bu təşəbbüs nəticəsində reallığını tapmışdır. Əslində, Nizami Gəncəvinin ilk yaradıcı kimi bədii obrazı "Fərhadnamə" əsərində aydın görünür. Arif Ərdəbilinin Nizamini tənqid etməsi barədə Vaqif Yusifli belə yazırdı: *"Arif Ərdəbiliyə qədər tənqidi fikir şairlərin söz, sənət haqqında poetik tezisləri şəklində davam edirdi. Xaqani də, Nizami də konkret bir ədəbi əsər haqqında mühakimə yürütmürdülər, Arif Ərdəbili isə ilk dəfə olaraq bədii əsərdən - Nizaminin "Xosrov və Şirin"indən söz açır. Bu isə ədəbi-estetik fikir tariximizdə ilk hadisə idi"* [Yusifli: 2021, s.14]. Vaqif Yusiflinin düzgün qənaəti və bizim izahlarımız təsdiq edir ki, Arif Ərdəbilinin Nizaminin əsərinə bildirdiyi münasibət yazıçı tənqidinin xüsusiyyətlərinə bənzəyir. Onu da qeyd edək ki, Arif Ərdəbilinin "Fərhadnamə" əsərində təsadüf etdiyimiz bu fikirlər onu peşəkar tənqidə də yaxınlaşdırır. Lakin subyektiv təəssüratlar üstünlük təşkil etdiyi və tədqiqat xarakteri daşımadığı üçün yazıçı tənqidinin nümayəndəsi kimi təhlil etməyi məqsədəuyğun hesab edirik.

Arif Ərdəbilinin Nizami Gəncəviyə bu şəkildə yanaşması XX əsrdə Səməd Vurğunun Hüseyn Cavid yaradıcılığını qiymətləndirməsinə bənzəyir. 1936-cı il 24 mart - 3 aprel tarixlərində Azərbaycan sovet yazıçılarının müşavirəsi keçirilmişdir. "Formalizm və naturalizm" mövzusunu diqqət mərkəzində saxlayan müşavirənin nəticəsi olaraq, "Ədəbiyyat" qəzetində bu mövzuda Süleyman Rüstəm, Mikayıl Rəfili, Səməd Vurğunun çıxışları yer almışdır: *"Ədəbiyyatda və sənətdə formalizm və naturalizm əleyhinə aparılan mübarizə heç də növbəti kompaniya deyil, əksinə, bir hərəkət, sosialist realizmi metoduna keçən yolları təmizləyən bir vasitədir"* [Bədii ədəbiyyatda formalizm və naturalizm əleyhinə: 1936, s.1]. Bu metodun tələblərinə əsasən ədəbi simalar arasında fikir ayrılıqlarını ifadə edən mətnlərdə diqqət çəkən mövqe Səməd Vurğunun yaradıcılığında üzə çıxır. O, formalistlərin həyatdan uzaqlaşıb "sənət sənət üçündür" ideyasına söykəndiyi qənaətinə gəlmişdir. Öz fikirlərinə aydınlıq gətirmək üçün Mirzə Ələkbər Sabir və Hüseyn Cavid yaradıcılığına müraciət etmişdir. Mirzə Ələkbər Sabiri xalqın həyatını duyması və onların arzularına xidmət etməsi tərəfdarı kimi yüksək qiymətləndirmişdir: *"Sabir elə bir sənətkar olmuşdur ki, onunla xalqımız əsrlər boyu fəxr edəcəkdir. Sabirin yaradıcılığında xalqımızın ruhu, həyatı vardır"* [Vurğun: 1936, s.1]. Bunun əksinə olaraq, Hüseyn Cavid haqqında fikirləri fərqlidir: *"Biz Hüseyn Cavidin yaradıcılığından istifadə etmiş və edəcəyik. H.Cavidin yaradıcılığında biz şairlər üçün öyrənməli şeylər çoqdur. Lakin Hüseyn Cavidin yaradıcılığı bizim Azərbaycan xalqilə, onun tarixilə, onun taleilə bağlı deyildir. Mən əminəm ki, böyük sənətkar H.Cavid həqiqi xalqçılıq uğrunda apardığımız mübarizədə bizim səsimizə hər kəsdən əvvəl səs verəcəkdir. Əminəm ki, H.Cavid Azərbaycan xalqını, sosyalizm ölkəsində xariqələr yaradan Azərbaycan xalqını daha dərindən sevəcək, onu bütün genişliyilə öz əsərlərində göstərəcəkdir"* [Vurğun: 1936, s.1]. Tənqidçi Məsud Əlioğlunun Səməd Vurğunun fikirlərini təhlil edərkən gəldiyi qənaət bizim diqqətimizi cəlb etmişdir: *"Sənətdə ictimai məzmun, konkretlik, müasir hadisələrə nüfuz etmək, fəlsəfi ümumiləşdirmə, Səməd Vurğuna görə, yazıçını irəli aparan, onun qarşısında geniş yaradıcılıq üfüqləri açan mühüm amillərdir. Səməd Vurğunun ədəbi yaradıcılıq prosesi, incəsənətin nəzəri məsələləri və qarşısında duran vəzifələr haqqındakı qeyd və fikirləri şairin tənqidi-estetik görüşlərinin müəyyən bir hissəsini təşkil edir"* [Vəliyev: 1961, s.89]. Məsud Əlioğlunun Səməd Vurğu-

nun ədəbi görüşləri haqqında mülahizələri professional tənqidi şərtləndirən xüsusiyyətləri özündə ehtiva edir. Səməd Vurğunun cərəyanlar mövqeyindən şairləri dəyərləndirməsi ideologiyanın təsirini göstərən faktordur. Peşəkar tənqidi yazıçı tənqidindən fərqləndirən cəhət ideoloji maraqlara xidmət etməsi ilə bağlıdır. Eyni zamanda, onun tənqidi fərdi yaradıcılıq təcrübəsinə və fərdi düşüncə müstəvisinə əsaslanır. Lakin şairin digər məqalələrini və ümumi yaradıcılıq tendensiyasını nəzərə alsaq, onu yazıçı tənqidinin nümayəndəsi hesab edə bilərik. Hüseyn Cavid yaradıcılığına yanaşmasında da bu üslub hiss olunur. Çünki fikirlər impresionist və deduktiv əsasdadır. Səməd Vurğun da Arif Ərdəbili kimi, şəxsiyyətə və yaradıcılığa hər hansı bir mahiyyətin üstünlüyünü göstərmək üçün müraciət etmişdir. Arif Ərdəbili öz əsərinin unikallığını, Səməd Vurğun isə sosialist realizmi metodundan irəli gələn ideoloji marağını təcəssüm etdirmişdir.

Ədəbi prosesdə hər bir tənqidçinin öz fərdi yanaşması mövcuddur. Tipologiyanı aparmaq nizamlı, sistemli tədqiqat aparmaq məqsədindən doğur və bunun nəticəsində nəzəri sistem formalaşır. Eyni zamanda fərdiliyin içərisindən ümumiləşmiş istiqamətləri, qanunauyğunluqları tapıb çıxarmaq dövrün xarakteristikasına nəzər yetirməyə rəvac verir. Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Abdulla Şaiq, Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı, Süleyman Rəhimov, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə və Anarın məqalələri yazıçı tənqidini formalaşdıran araşdırmalardır. Seyid Hüseyn, Mir Cəlal Paşayev, Mehdi Hüseyn, Mirzə İbrahimov, Əzizə Cəfərzadə və Elçinin elmi tədqiqatlarını yazıçı tənqidindən uzaqlaşdıran cəhət subyektiv mülahizələrdən xilas olub nəzəri müddəaların hakimliyinə əhəmiyyət verilməsi ilə bağlıdır. Yuxarıda adı çəkilən birinci qrupda qeyd etdiyimiz ədiblərimizin yazılarında üslub və mövzu baxımından yaxınlıq çoxdur, publisistikaya meyil və fikri obrazlı şəkildə çatdırma güclüdür. Mövzuların çatdırılması zamanı isə fərdi düşüncə müstəvisi və ədəbiyyatda mövqeləri spesifikliyi ilə seçilir.

Bu bölgü ətrafında fikir müxtəlifliyi vardır. Mirzə Fətəli Axundzadənin və Elçinin yazıçı və ya tənqidçi olması barədə ortaq düşüncə hakim deyildir. Yazıçı tənqidi haqqında elmi-tədqiqat aparmış Sevinc Rəhimovanın irəli sürdüyü mülahizələr əsasında öz fikrimizi əsaslandıracağıq. Tədqiqatçının fikirlərinə nəzər yetirək: *"Tənqidi yaradıcılıq S.Vurğun, S.Rəhimov, İ.Əfəndiyev, R.Rza, B.Vahabzadə, Anar, Arif Abdullazadə kimi sənət adamlarının ədəbi fəaliyyətinin ana xəttini təşkil etmədiyindən bu sahə ilə sırf profesionallıqla məşğul olmamışlar. Ədəbi prosesin daxili qanunauyğunluqları ilə yaxından maraqlanan, ədəbi həyatı nəinki izləyən, hətta bu həyatı profesionallıqla araşdıran tənqidçilər də olmuşdur. Bu cəhətdən onları Axundzadə yolunun davamçıları hesab etmək olar. Belə yazıçı-tənqidçilərdən Mehdi Hüseyn, Mirzə İbrahimov, Mir Cəlal Paşayevin adını çəkmək olar"* [Rəhimova: 2013, s.10]. Onun bu fikirlərində isə doğruluq payı vardır ki, bu tənqidçilərin məqalələrində tənqidi mühakimə digərlərindən fərqlənir. O, Mirzə Fətəli Axunzadənin ədəbi prosesdə yerini yazıçı tənqidinə bağlamamaqla haqlıdır. Elçinin monoqrafiyasında belə fikrə təsadüf edirik: *"Müharibədən sonrakı dövr Azərbaycan ədəbi tənqidinin inkişafında Məmməd Arif, Məmməd Cəfər Cəfərov, Cəfər Cəfərov kimi yaşlı nəslə mənsub tənqidçilərin, eləcə də yazıçı-akademik Mirzə İbrahimovun və yazıçı olduğu qədər də tənqidçi olan Mehdi Hüseynin rolunu ilk növbədə qeyd etmək olar"* [Elçin: VIII, 2005, s.160]. Bizim fikrimizcə, Mehdi Hüseyn, Mirzə İbrahimov, Mir Cəlal Paşayevin məqalərində irəli sürdüyü fikirlər və onların həlli zamanı dəlillərlə işləmə bacarığı onu Mirzə Fətəli Axundzadə yolunun davamçısı kimi səciyyələndirilməsinə gətirib çıxarır. Əgər professionallıqdan bəhs ediriksə, yazıçı tənqidini peşəkar tənqiddən fərqləndirən cəhət də budur. Burada mahiyyət birbaşa yazıçının tənqidi fikirdə yerindən, elmi bilik səviyyəsindən, sənətkarlıq cəhətdən araşdırdığı materialı işləmə bacarığından gedir. Ədəbi prosesin əsasında tənqidçi mövqeyi dayanır. Bu tənqidçi mövqeyinin başlanğıcını Mirzə Fətəli Axundzadə qoymuşdur.

Vaqif Sultanlı Mirzə Fətəli Axundzadəni yazıçı tənqidinin nümayəndəsi hesab edir: *"Mehdi Hüseyn, Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Əzizə Cəfərzadə, Çingiz Hüseynov, Elçin və başqalarının istisnasız olaraq bütün yazılarının yazıçı tənqidi kimi dəyərləndirilməsi doğru deyildir"* [Sultanlı: 2019, s.19]. Həmin tənqidçiləri yazıçı tənqidindən uzaqlaşdıran

məqamlar çoxdur. Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", Mirzə İbrahimovun "Böyük demokrat. Molla Nəsrəddin", Əzizə Cəfərzadənin "Azərbaycan poeziyasında xalq şeiri üslubu (XIX əsr materialları əsasında)", Bəxtiyar Vahabzadənin "S.Vurğunun poeziyası", Elçinin "Azərbaycan bədii nəsri tənqiddə (1945-1965)", "Ədəbiyyatda tarix və müasirlik problemi" tədqiqat əsərləri vardır. Onların yazı üslubunu digər şair və yazıçılardan fərqləndirən xüsusiyyət elmi bazaya malik olmaları ilə bağlıdır. Tədqiqatla mütəmadi məşğul olunması, ixtisaslaşmış kadrlar kimi yetişməsi yaradıcılığa təsir etmişdir. Elçindən başqa digər tədqiqatçıların sahəsi ədəbiyyat tarixinin predmetidir. Belə nəticəyə gəlmək olar ki, Elçin professional tənqidin nümayəndəsidir. Mir Cəlal, Mirzə İbrahimov, Əzizə Cəfərzadənin fəaliyyətində olan elmi baza tənqidi məqalələrində davam etmişdir, onların fəaliyyəti professional tənqidə yaxındır. Əzizə Cəfərzadənin fəaliyyətini yazıçı tənqidindən fərqləndirən cəhət emosional ifadə tərzinin olmamasıdır. Onun araşdırmaları ədəbiyyat tarixçisini daha çox xatırladır. Bəxtiyar Vahabzadənin mülahizələri isə yazıçı tənqidinə daha çox uyğundur.

Vaqif Sultanlının Mirzə Fətəli Axundzadəni bu sıraya daxil etməməsi maraq doğurur. Professional tənqidin başlanğıcı XIX əsrdə yaşamış Mirzə Fətəli Axundzadənin adı ilə əlaqələndirilir. Əgər professional tənqid onun adı ilə bağlıdırsa, onu yazıçı tənqidinin nümayəndəsi kimi qeyd etmək məsələsi müəmmalı olaraq qalır. Peşəkar tənqidçi olan Məmməd Arif də bu fikirdə idi: *"Mirzə Fətəli Axundzadə peşəkar tənqidçi deyildi, lakin onun ədəbi-tənqidi görüşləri və tənqid sahəsindəki əməli fəaliyyəti Azərbaycan ədəbiyyatında ədəbi tənqidin əsasını qoymuşdur"* [Arif: 1984, s.6].

Bu ikitərəfli münasibəti yaradan səbəblər vardır:

- Mirzə Fətəli Axundzadənin ədəbi prosesdə dramaturq kimi tanınması.
- Tənqidi mühakimənin az olduğu şəraitdə onun obyektiv qiymətləndirmə istiqaməti seçməsinin yeniliyi.

Mirzə Fətəli Axundzadə XIX əsrdə Azərbaycan ədəbiyyatında yeni bir istiqamətin yaranmasına və inkişafına təkan vermişdir. *"Axundov nəinki yalnız Yaxın Şərqin ilk böyük dramaturqu, ilk şərqşünası, o eyni zamanda Şərqin ilk ədəbiyyat tənqidçisi olmuşdur. Yaxın Şərqdə elmi-ədəbi tənqidin əsasını qoyan Mirzə Fətəli Axundovdur*" [Cəfər: 1950, s.25]. Altı komediyası ilə ədəbi mühitdə seçilən imza olmuşdur. Bu komediyalar milli teatrın əsasını qoymuşdur. Bütün bunlar bizə əsas verir ki, XIX əsri bütöv bir mərhələ kimi Axundzadə dövrü adlandıraq. Bu səbəbdəndir ki, Axundzadə yaradıcı şəxsiyyət kimi daha çox yazıçı kimi diqqət mərkəzində olmuşdur. Tənqidi-realist məktəbin əsasını qoyan Axundzadənin "Yek kəlmə" haqqında, "Fehristi-kitab", "Tənqid risaləsi", "Nəzm və nəsr haqqında", "Kritika. Yüksək İranın "Millət" qəzeti münşisinə", "Mirzə Ağanın pyesləri haqqında kritika" əsərlərində fəlsəfi fikir üstündür. Bu məqalələrdə qoyulan və həllinə çalışan məsələlər onu yazıçı tənqidinin nümayəndəsi kimi səciyyələnməsini qəlizləşdirir. Çünki o tənqidin nəzəri baxımdan araşdırılmasının ilkin rüşeymlərini qoymuşdur. Bu cəhətdən onun sırf yazıçı tənqidinin nümayəndəsi kimi də xatırlanması obyektiv qənaət deyildir, Axundzadə "Tənqid necə olmalıdır?" sualına cavab verir.

Mirzə Fətəli Axundzadəni professional tənqidçi kimi səciyyələndirən məqamları bu şəkildə izah edə bilərik:

- "Yek kəlmə" haqqında məqalə məktublaşma ədəbiyyatının nümunəsi olsa da, tənqidçinin polemika yaratmaq qabiliyyəti aşkar olunur. Müəllif düşüncəsi bu məqalədə bir əsərin fonunda ictimai baxış nəzərə alınaraq təhlil edilmişdir. Deməli, tənqidin bölgüsündə forma deyil, məzmun əsasdır. O, kitabı dəyərləndirərkən belə nəticəyə gəlmişdir: "*Faydalı nəsihətdir. Lakin ölmüş millət üçün yazılmışdır. İşin əlacı nəsihət və vəz etməkdə, məsləhət verməkdə deyil, göz qabağında olan bu əsas kökündən, dibindən qoparılmalıdır*" [Axundzadə: 2004, s.243].
- "Nəzm və nəsr haqqında" məqaləsində açıq ifşa üsulunu əsas seçmiş, nəzəri qənaətlərini subyektiv fikirləri ilə uzlaşdırmağa çalışmışdır.
- "Kritika" məqaləsində şeirdə məzmun və formanın vəhdətini əsaslandırmağı vacib bilmişdir.
- "Mirzə Ağanın pyesləri haqqında kritika" əsərində dramatik əsərlər qarşısında labüd olan tələbləri müəyyənləşdirmişdir. "Fehristi-kitab" məqaləsində isə komediya və facıə haqqında izahat

vermişdir. Bunlar şəxsi təəssüratdan çıxıb təcrübi fəaliyyətin nəticəsi kimi diqqəti cəlb edir.

- "Tənqid risaləsi" məqaləsi ilə ədəbi proses və tənqidçi anlayışını izah etmişdir. Dramaturgiyadan gələn dialoji nitq vasitəsilə şeirdə qafiyə xətrinə məzmunun nəzərə alınmamasına irad bildirmişdir. İki şəxsin deyişməsi fonunda bədii əsərin və hadisənin qiymətləndirmə xüsusiyyəti barədə məlumat vermişdir: "*Bir şəxs bir kitab yazdığı zaman, başqa bir şəxs onun əsərlərinin mətləbləri xüsusunda kritika yazır, bu şərtlə ki, onun yazısında müəlif haqqında ədəbsiz və könül incidən bir söz belə olmasın. Hər nə deyilsə, incəliklə deyilsin. Bu işi "kritika", fransız istilahı ilə "kritik" adlandırırlar. Müəllif ona cavab verir. Ondan sonra üçüncü bir şəxs meydana çıxır ki, ya müəllifin cavabını təsdiq edir, ya da kritika yazanın fikrini üstün tutur*" [Axundzadə: 2004, s.214].

Bu qeyd etdiyimiz məqalələrdə "Tənqid nədir?" sualının cavabı aydınlaşmış və gələcək tədqiqatlar üçün "istiqamətverici" xarakter daşımışdır. Belə nəticəyə gəlirik ki, tənqid məfhumunu ədəbi dövriyyəyə Mirzə Fətəli Axundzadə daxil etmişdir. *"Professional tənqid elmlə bədii ədəbiyyat arasında, yazıçı tənqidi isə öz bədii xüsusiyyətlərinə görə professional tənqidlə bədii ədəbiyyat arasında yer tutur"* [Dadaşova: 2003, s.33]. Mirzə Fətəli Axundzadənin ədəbi prosesdə mövqeyi də tənqidin nəzəriyyəsi ilə bədii ədəbiyyat arasında formalaşan üslubla bağlıdır. Onu yazıçı tənqidi kimi qiymətləndirmək tənqidin nəzəri aspektlərinə toxunması baxımından real səslənmir.

Çağdaş ədəbi prosesdə həm yazıçı, həm də tənqidçi kimi tanınan Elçin Əfəndiyevin professional, yaxud yazıçı tənqidinə daxil olması baxımından yeri aydınlaşdırılmamış olaraq qalır. Axundzadə bədii materiala janrların prizmasından yanaşıb nəzəri qənaət formalaşdırırdısa, Elçin tənqidin metodologiyasını elmi sübutlarla təsdiq etməyə çalışırdı. *"Elçin ədəbiyyatşünaslıqdan daha çox tənqid məsələlərinə toxunur, onu tənqidin tənqidi maraqlandırır"* [Dadaşova: 2003, s.73]. Ona görə də onun fəaliyyətini yazıçı tənqidindən uzaqlaşdırırıq. Onu professional tənqidin nümayəndəsi hesab edirik. Çünki tədqiqat apardığı elmi işlər həm kəmiyyət baxımından çoxdur, həm keyfiyyət cəhətdən tənqidçi məfhumunu əhatə edən xüsusiyyətlərə malikdir.

Sevinc Rəhimovanın "Yazıçı tənqidi və ədəbi proses" tədqiqat işinin əsas araşdırma mətnləri Elçinin kitab və məqalələridir. Şəfəq Dadaşovanın "Müasir Azərbaycan ədəbi tənqidinin tipologiyası" tədqiqat işinin də bir bölməsində Elçin yazıçı tənqidinin nümayəndəsi kimi təhlil edilmişdir. Maraqlıdır ki, tədqiqat zamanı gəlinən nəticələr onu professional tənqidçi qrupuna daxil edir. *"Elçinin tənqidi məqalələri öz elmi üslubuyla, məntiqi əqli nəticələrin olmasıyla, bədiilikdən bir qədər uzaq publisistik xüsusiyyətlərə malik olması ilə seçilir*" [Dadaşova: 2003, s.80]. *"Elçin ədəbi tənqidi bədiiliklə elmiliyin vəhdətindədir, emosional olduğu qədər də elmidir, məntiqidir"* [Rəhimova: 2013, s.121]. Qeyd edilən bu fikirlərə belə aydınlıq gətirmək olar ki, Elçinin tənqidi əsərlərində özünəməxsus bir üslub hakimdir. Elmi əsərlərin başlanğıc hissəsi bədiilikdən gələn emosional ifadə tərzinə malikdir. Lakin mətnin əsas hissəsi və nəticəsində irəli sürülən fikirlər isbatını tapır, elmi mühakimə üstünlük təşkil edir. Bizim fikrimizcə, bunlar onu professional tənqiddən uzaqlaşdırmır. Yazıçı tənqidi yazıçı olmaq anlamına gəlmir. Çox zaman tədqiqatçılar bir ədəbiyyat adamının bədii yaradıcılığına əsasən onu bu prizmadan təhlil edir.

## Nəticə / *Conslusion*

Yazıçı tənqidinin ilkin mərhələsində ədəbi simanın bədii materialda ifadə etdiyi fikirlərdə tənqidi mühakimə fərdi düşüncənin məhsulu kimi özünü göstərir. Buna görə də nəzəri səviyyə tənqidi fikri formalaşdırmaq mahiyyətində deyildir. Subyektiv mülahizələrin sahibi bədii mətni yaradan şəxsiyyətlə eyni olduğu üçün yazıçı tənqidi anlayışı ortaya çıxır. Lakin bu tipoloji aspekti yaratmaq iqtidarında deyildir. XIX sonu XX əsrin əvvəllərindən isə şair və yazıçıların düşüncələri bədii əsər çərçivəsindən çıxıb tənqidin janrları istiqamətində özünü göstərməyə başlayır, bədii əsərin müəllifi öz qənaətlərini başqa janrda sınayır. Nəticədə, mülahizələr ümumiləşmiş mahiyyətdən başqa bədii əsərin təhlili fonunda xüsusiləşmiş istiqamətə yönəlir.

Arif Ərdəbilini, Səməd Vurğunu ona görə yazıçı tənqidinin nümayəndəsi kimi qeyd edirik

ki, onların bədii materialı dəyərləndirmə meyarlarında subyektiv amillər üstünlük təşkil edir və elmi ictimaiyyətin ortaq düşüncə müstəvisinə sərbəst yanaşma mövcuddur. Nizami Gəncəvi və Hüseyn Cavid yaradıcılığının tədqiqi zamanı qeyd edilən fikirlər nəzəri aspektdən uzaqdır və şəxsi motivlərə söykənmə əsasdır. İfadə seçimi və fikri çatdırma məqamında obrazlı təzahür və emosional çalar nəzərə çarpır. Nizami Gəncəvi və Hüseyn Cavid yaradıcılığına yanaşmada deduktiv mahiyyət vardır. Belə ki, bu məqalələrdə şəxsiyyət amili əsas, nəzəri problem ikinci plandadır.

Mirzə Fətəli Axundzadə, Mir Cəlal Paşayev, Mehdi Hüseyn, Mirzə İbrahimov, Əzizə Cəfərzadə, Elçinin fəaliyyəti elmiliklə araşdırılan materialı, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Abdulla Şaiq, Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı, Süleyman Rəhimov, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə və Anarın fəaliyyəti isə bədiiliklə tədqiqat obyektini birləşdirir. Bu o deməkdeyildir ki, yazıçı tənqidində tənqid yoxdur. Lakin professional tənqidçilərdə olan səviyyədən aşağıdır. Deməli, yazıçı tənqidi professional tənqidlə ədəbiyyat tarixçisi arasında orta mövqedə dayanır. Ona görə də Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Abdulla Şaiq, Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı, Süleyman Rəhimov, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə və Anarı yazıçı tənqidinin nümayəndəsi, Mirzə Fətəli Axundzadə, Seyid Hüseyn, Mir Cəlal Paşayev, Mehdi Hüseyn, Mirzə İbrahimov və Elçini isə yazıçı-tənqidçi kimi xarakterizə etsək, doğru yanaşma irəli sürə bilərik.

## Ədəbiyyat / *References*


1. Axundzadə M.F. (2004). *Bədii və ədəbi-tənqidi əsərlər*i. Bakı: Çaşıoğlu.
2. Arif M.M. *Tənqid də yaradıcılıqdır /* Ədəbi tənqid: problemlər, vəzifələr / tərt. ed. və red. K.Talıbzadə. Bakı: Yazıçı, 1984, s.5-18
3. *Bədii ədəbiyyatda formalizm və naturalizm əleyhinə*. "Ədəbiyyat qəzeti", 3 aprel 1936-cı il, s.1
4. Белинского В.Г. (1981). *Собрание сочинений (в 9-и томах*). Т.6. Москва: Художественная литература.
5. Borev Y.B. (2010). *Estetika*. Bakı: Təhsil.
6. Cəfər M.Z. *(1950). M.F.Axundovun ədəbi-tənqidi görüşləri*. Bakı: Azərnəşr.
7. Dadaşova Ş.N. (2003). *Müasir Azərbaycan ədəbi tənqidinin tipologiyası. (Yazıçı tənqidi problemi)*: filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.
8. Elçin İ. (2005). *Seçilmiş əsərləri* (on cilddə). VIII cild. Bakı: "ÇİNAR-ÇAP" nəşriyyatı.
9. Ərdəbili A. (2007). *Fərhadnamə*. Bakı: "OKA Ofset".
10. Gəncəvi N. (2004). *Xosrov və Şirin*. Bakı: Lider nəşriyyatı.
11. Gəncəvi N. (2004). *Leyli və Məcnun*. Bakı: Lider nəşriyyatı.
12. Кривцун О.А. (2014). *Естетика*. Москва: Юрайт.
13. Rəhimova S.Ə. (2013). *Yazıçı tənqidi və ədəbi proses (Elçinin ədəbi-tənqidi fəaliyyəti əsasında)*: filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.
14. Sultanlı V.S. (2019). *Azərbaycan ədəbi tənqidi.* Bakı: Nurlar.
15. Talıbzadə K.A. (1994). *Seçilmiş əsərlər*i (iki cilddə). II cild. Bakı: Azərnəşr.
16. Vəliyev M.Ə. (1961). *Məfkurə dostlar*ı. Bakı: Azərnəşr.
17. Vurğun S.Y. *Formalizm ve naturalizm əleyhinə*. "Ədəbiyyat qəzeti", 14 aprel 1936-cı il, s.1
18. Yusifli V.Ə. *Arif Ərdəbili - Nizami Gəncəvi "münaqişəsi"*. "Kredo" qəzeti, 23 iyun 2021-ci il, s.14